

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 203 (23.114)

*24 oktyabr 2018-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsevi qəbul edib.

Azərbaycan ilə Rusiyanın dost ölkələr olduğunu vurğulayan Prezident İlham Əliyev ölkələrimizin bütün istiqamətlərdə fəal əməkdaşlıq həyata keçirdiyini bildirib. Dövlətimizin başçısı bu baxımdan ölkələrimizin Daxili İşlər nazirlikləri arasında çox səmərəli əməkdaşlığın həyata keçirilməsindən məmnunluğunu ifadə edib.

Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərə toxunaraq, sentyabr ayında özünün Rusiya Federasiyasına rəsmi səfərini, sonra isə Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana səfərini ölkələrimiz arasında mövcud olan qarşılıqlı fəaliyyətin xarakterinin və etimadın əyani nümunəsi kimi dəyərləndirib.

Vladimir Kolokoltsev bildirib ki, dövlət başçıları arasında son bir ildə 5 görüşün keçirilməsi bu münasibətlərin inkişaf strategiyasının bundan sonra da möhkəmləndirilməsinin vacib olduğunu göstərir. Eyni zamanda, Aktau şəhərində Xəzəryanı dövlətlərin başçıları tərəfindən imzalanmış sənədlər də hüquq-mühafizə orqanlarının qarşılıqlı fəaliyyəti üçün bir təkan rolu oynayıb.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Asiya İnkişaf Bankının vitse-prezidenti ilə görüşüb






Oktyabrın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janq ilə görüşüb.

Ali Məclisin Sədri Azərbaycan Respublikası Hökuməti və Asiya İnkişaf Bankı arasında bağlanmış kredit sazişinə əsasən Naxçıvan şəhərində həyata keçirilmiş "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsinin uğurla başa çatması münasibətilə Vençay Janqı təbrik edib.

Ali Məclisin Sədri deyib ki, layihə çərçivəsində 350 kilometr içməli su və 332 kilometr kanalizasiya şəbəkəsi çəkilib, 135 min nəfər standartlara uyğun içməli su ilə təmin olunub. Həmçinin layihədən qənaət olunmuş vəsait hesabına 3 yaşayış məntəqəsində də içməli su və kanalizasiya şəbəkəsi qurulub. Ali Məclisin Sədri dövlət vəsaiti hesabına muxtar respublikanın digər rayon və şəhərlərində də içməli su və kanalizasiya sistemlərinin qurulduğunu diqqətə çatdırıb.

Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Asiya İnkişaf Bankı ilə əlaqələri bundan sonra da davam etdirməkdə maraqlı olduğunu bildirən Ali Məclisin Sədri qurulan səmərəli əməkdaşlığa görə Asiya İnkişaf Bankının vitse-prezidentinə təşəkkür edib.

Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janq səmimi qəbula görə minnətdarlıq edib və muxtar respublikaya səfərindən məmnunluğunu bildirib. Asiya İnkişaf Bankının ölkəmizdə 20 ilə yaxındır fəaliyyət göstərdiyini və müxtəlif layihələrin həyata keçirildiyini qeyd edən vitse-prezident Asiya İnkişaf Bankı ilə Azərbaycan arasında 2019-2023-cü illər üçün əməkdaşlıq strategiyasının hazırlandığını diqqətə çatdırıb. Qonaq muxtar respublikaya səfərinin də layihə çərçivəsində görülən işlərin və Asiya İnkişaf Bankı ilə Naxçıvan Muxtar Respublikası arasında gələcək əməkdaşlıq imkanlarının müzakirəsi üçün geniş imkanlar açdığını bildirib.

Sonda xatirə şəkli çəkdirilib.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## *"Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı"* layihəsinin yekununa həsr olunmuş tədbir keçirilib

*Oktyabrın 23-də Naxçıvan Şəhər İcra Hakimiyyətində Naxçıvan şəhərinin "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsinin yekununa həsr olunmuş təqdimat mərasimi keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Baş naziri Əlövsət Baxşıyev çıxış edərək bildirib ki, təqdimatı olan bu çoxtranşlı kredit sazişi 2008-ci ildə bağlanılıb. Layihə Azərbaycan Respublikası Hökuməti və Asiya İnkişaf Bankı arasında bağlanmış kredit sazişinə əsasən Naxçıvan şəhərində uğurla həyata keçirilib, şəhərdə müasir içməli su və kanalizasiya şəbəkəsi qurulub. Bu gün Naxçıvan şəhərində əhali 24 saat davamlı, keyfiyyətli və təmiz içməli su ilə təmin olunur.

Ayrılmış vəsaitin səmərəli istifadəsi nəticəsində qənaət edilən vəsait hesabına Şıxmahmud, Xəlilli və Şəkərabad kəndlərində ən müasir texnologiyalardan ibarət su təchizatı və kanalizasiya sistemləri yaradılıb. Nəticədə, həmin kəndlərdə 53,7 kilometr su, 49,6 kilometr kanalizasiya xətti çəkilib, 1679 ev birləşməsi aparılıb, 10 min sakin içməli su ilə təmin edilib, evlər kanalizasiya şəbəkəsinə qoşulub.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov çıxışında bildirib ki, layihə çərçivəsində əvvəlcə üç mərtəbədən ibarət ofis binası və digər yardımçı binalar tikilib, 18 müxtəlif təyinatlı maşın-mexanizmlər alınaraq Naxçıvan Şəhər Su-Kanalizasiya İdarəsinə verilib. Bundan sonra Naxçıvançay yatağında məhsuldarlığı orta hesabla saniyədə 472 litr olan kaptaj tikilərək kaptajdan təmizləyici qurğuya qədər 6,4 kilometr özüaxınlı şüşə lifli magistral boru xətti çəkilib. İstifadəyə verilmiş Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi əhalinin ekoloji cəhətdən təmiz və dayanıqlı içməli su ilə təmin edilməsində böyük rol oynayır. Kompleks haqqında ətraflı məlumat verən komitə sədri diqqətə çatdırıb ki, layihə çərçivəsində Naxçıvan şəhəri və şəhərin inzibati ərazisinə aid kəndlər də daxil olmaqla, diametri 63 millimetrdən 710 millimetrədək olan borularla 296,4 kilometr şəhərdaxili su, diametri 200 millimetrdən 1000 millimetrədək borularla 282,9 kilometr kanalizasiya şəbəkələri çəkilib, 24 min 195 evə su verilərək sayğac quraşdırılıb, 125 min sakin fasiləsiz keyfiyyətli içməli su ilə təmin edilib, bütün ev və mənzillər kanalizasiya şəbəkəsinə qoşulub.



Qeyd olunub ki, ümumilikdə, "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsinin həyata keçirilməsi nəticəsində 350 kilometr içməli su və 332 kilometr kanalizasiya şəbəkələri çəkilib, 25 min 874 ev birləşməsi aparılaraq sayğac quraşdırılıb, 135 min sakin Beynəlxalq Səhiyyə Təşkilatının tələblərinə cavab verən içməli su ilə fasiləsiz olaraq təmin edilib.

Vurğulanıb ki, Naxçıvan şəhərində kanalizasiya sistemləri yenidən qurularkən əsas diqqət yetirilən məsələlərdən biri də çirkab suların təmizlənərək suvarma suyu kimi istifadə olunmasına şərait yaradılmasıdır. Bu baxımdan layihə çərçivəsində Araz çayının kənarında Naxçıvan Şəhər Təmizləyici Qurğular Kompleksi tikilib. Tikinti işləri aparılarkən muxtar respublikanın iqlim şəraitinin və relyefinin nəzərə alınması, keyfiyyətə xüsusi diqqət yetirilməsi qurulan yeni içməli su və kanalizasiya sistemlərinin uzun müddət istismarına imkan verəcəkdir.

Sonra çıxış edən Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janq bildirib ki, o, Azərbaycanın digər yerlərində olsa da, Naxçıvana ilk dəfədir, gəlir. Asiya İnkişaf Bankı ilə Azərbaycan Hökuməti arasındakı əməkdaşlıq tarixinin mühüm hadisəsi olan və 135 min insanın həyatında yeni keyfiyyət dəyişikliyi yaradan belə bir əhəmiyyətli layihənin yekun tədbirində iştirak etməkdən məmnunluğunu bildirən Vençay Janq vurğulayıb ki, Asiya İnkişaf Bankının yürütdüyü "Hamı üçün su" siyasəti universal dayanıqlı inkişafı dəstəkləməkdədir.

Bildirilib ki, 2001-ci ildən Asiya İnkişaf Bankının diqqət mərkəzində olan içməli su və kanalizasiya sistemləri layihələrinə Azərbaycanda ilk dəfə olaraq Naxçıvan şəhərində başlanılıb. Muxtar respublika paytaxtında evlərə verilən içməli suyun keyfiyyətinin çox yüksək olduğunu vurğulayan qonaq bu uğurlu layihənin başa çatmasında dəstəyinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığını bildirib, icraçı şirkətlərə qrafikə uyğun olaraq işləri tam və vaxtında yerinə yetirdiklərinə görə təşəkkür edib. O qeyd edib ki, Asiya İnkişaf Bankı bu layihədən əldə etdiyi müsbət təcrübənin digər yerlərdə də tətbiqinə və daha çox insanı ekoloji təmiz su ilə təmin etməyə maraqlıdır.

Daha sonra layihənin reallaşdırılmasında iştirak edən "Biowork" şirkətinin baş icraçı direktoru Peter Kroner və "Aquamatch" şirkətinin icraçı direktoru İlker Akbaş çıxış edərək Naxçıvan Muxtar Respublikasında belə bir uğurlu layihənin iştirakçısı olduqlarına görə məmnuniyyətlərini ifadə ediblər.

Tədbirin sonunda lahiyənin reallaşdırılmasını əks etdirən film nümayiş olunub.

**✍ Əli CABBAROV**

**24 oktyabr Hüseyn Cavid Poeziya Günüdür**

# Həqiqət şairi



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 15 may tarixli Sərəncamı ilə təsdiq olunmuş "Hüseyn Cavidin 125 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"na əsasən hər il oktyabrın 24-ü – ədibin anadan olduğu gün Naxçıvan Muxtar Respublikasında "Hüseyn Cavid Poeziya Günü" kimi qeyd edilir.*

Hüseyn Cavid 1882-ci ildə Naxçıvanda Molla Abdullanın ailəsində anadan olmuşdur. O, ilk təhsilini mollaxanada almış, sonra isə təhsilini öz dövrünün görkəmli maarifpərvər ziyalısı olan Məhəmməd Tağı Sidqinin yenitipli məktəbində – "Məktəbi tərbiyə"də davam etdirmişdir. Burada dünyəvi elmlərə yiyələnmiş, "Gülçin" təxəllüsü ilə ilk şeirlərini yazmağa başlamışdır. 1906-1909-cu illərdə İstanbul Universitetinin ədəbiyyat fakültəsində oxuyan ədibin həyatında və gələcək yaradıcılığında bu illər mühüm mərhələ təşkil edir. Hüseyn Cavid burada görkəmli alimlərdən və pedaqoqlardan dərs almış, idealist fəlsəfənin sirlərinə dərindən yiyələnmişdir. 1909-1910-cu illərdə Naxçıvanda müəllimliklə məşğul olmuş və ədəbiyyatımızda ilk mənzum dram olan "Ana" pyesini məhz burada yazmışdır. 1911-1917-ci illərdə Tiflisdə həm bədii yaradıcılıqla, həm də pedaqoji fəaliyyətlə məşğul olan şair-dramaturq 1913-cü ildə Tiflisdə "Keçmiş günlər" adlı ilk şeirlər kitabını çap etdirmişdir. 1917-ci ildə Bakıda "Bahar şəbnəmləri" adlı ikinci şeirlər kitabı çap edilmişdir.

Ədib 1918-ci ilin ortalarından 1919-cu ilin əvvəllərinə kimi Naxçıvanda "Rüşdiyyə" məktəbində dərs demişdir. 1919-cu ildə Abdulla Şaiqlə birgə ilk ədəbiyyat nəzəriyyəsi dərsliyimiz olan "Ədəbiyyat dərsləri" kitabını yazmışdır. 1920-ci ildən sonra Azərbaycan Müəllimlər İnstitutunda və Bakı Teatr Texnikumunda dərs demişdir.

Millətini, xalqını, sahib olduğu milli dəyərlərini canından artıq sevən böyük mütəfəkkir bütün həyatı boyunca həqiqət uğrunda mübarizə aparmış, xalqını, millətini xoşbəxt görmək üçün qələm çalmışdır. Şairin fikrincə, bu xoşbəxtlik yüksək təhsil və mədəniyyətlə mümkündür. Bunun üçün də azad yaşamaq, öz dövlətinin sahibi olmaq əsas şərtdir. 1937-ci ilin iyun ayında "gizli millətçi əks-inqilabi təşkilat"da iştirakı bəhanəsi ilə səkkizillik həbs cəzasına məhkum edilmişdir. O, 1938-1940-cı illərdə keçmiş SSRİ ərazisindəki ən uzaq və ən soyuq həbs düşərgəsi olan Maqadan şəhərində sürgündə olmuşdur. 5 dekabr 1941-ci ildə Sibirdəki Tayşet rayonunun Şevçenko qəsəbəsində sürgündə ikən vəfat edən Hüseyn Cavid şəxsiyyəti və yaradıcılığı, ona verilən yüksək qiymət haqqında düşünərkən böyük sənətkarın mərhum qızı Turan xanımın dediyi belə bir fikir yada düşür: *"Atama əsl bəraəti 1981-ci il iyul ayında "Hüseyn Cavidin 100 illiyi haqqında" qərardan sonra hesab edirəm. Bu, ədalətin zəfər çalması idi. Bunun üçün, birinci növbədə, mən Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevə minnətdaram".*

Ümummilli liderimizin təşəbbüsü və rəhbərliyi ilə qəbul edilən bu qərar böyük şair və dramaturqa dövlət səviyyəsində verilən yüksək qiymətin parlaq nümunəsi kimi mədəniyyət və ədəbiyyat tariximizdə böyük hadisə idi. Ümummilli lider Heydər Əliyev çox böyük cəsarət tələb edən addım atmış, Cavidin cənazəsi 1982-ci ildə Uzaq Sibirdən Bakıya, noyabrın 2-də Naxçıvana gətirilmişdir. Bu fakt keçmiş Sovetlər Birliyi məkanında repressiya olunmuş şəxsə dövlət səviyyəsində göstərilmiş münasibətin yeganə cəsarətli nümunəsidir. Ötən əsrin 70-ci illərindən etibarən Cavidin əsərlərinin nəşrinə başlanmış, rus dilində 2 cildliyi işıq üzü görmüşdür. Azərbaycanın şəhər və rayonlarında böyük ədibin yubiley tədbirləri təşkil olunmuş, əsərləri respublikamızın teatrlarında səhnəyə qoyulmuş, adına küçələr, məktəblər, kitabxanalar verilmişdir.

1992-ci il oktyabrın 23-də Naxçıvanda Hüseyn Cavidin 110 illik yubileyi təntənəli şəkildə qeyd edilmiş, Naxçıvanda Ali Məclisin Sədri işləyən ümummilli liderimiz yubiley tədbirində Hüseyn Cavid haqqında dərin məzmunlu çıxış etmiş, böyük sənətkarın xatirəsinin əbədiləşdirilməsi ilə bağlı bir sıra məsələlərə toxunmuşdur. Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidin ev-muzeyi yaradılmış, 1993-cü ildə Bakıda Hüseyn Cavidin abidəsi ucaldılmışdır. 1995-ci il iyunun 10-da ulu öndərimiz Heydər Əliyevin yanında keçirilmiş müşavirədə görkəmli şair-dramaturq Hüseyn Cavidin məqbərəsinin və ev-muzeyinin yaradılması ilə bağlı məsələlər geniş müzakirə olunmuşdur. Ulu öndərin ən böyük arzularından biri 1996-cı il oktyabrın 29-da həyata keçmişdir. Həmin gün Naxçıvanda böyük sənətkarın məqbərəsinin təntənəli açılışı olmuşdur. Ulu öndərin 23 oktyabr 2002-ci il tarixli Sərəncamı ilə Hüseyn Cavidin anadan olmasının 120 illik yubileyi, ölkə Prezidenti cənab İlham Əliyevin 2007-ci il 17 aprel, 2012-ci il 16 fevral və 2017-ci il 24 oktyabr tarixli sərəncamlarına əsasən isə ədibin 125, 130 və 135 illik yubileyləri geniş şəkildə qeyd edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yubileylərlə bağlı imzaladığı sərəncamlar və təsdiq etdiyi Tədbirlər Planı əsasən qədim diyarımızda yubiley tədbirləri yüksək səviyyədə təşkil olunmuş, elmi konfranslar və simpoziumlar keçirilmiş, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Hüseyn Cavidin "Şeyx Sənan" və "İblis" əsərləri tamaşaya hazırlanmış, "Naxçıvan" jurnalının bir nömrəsi Hüseyn Cavidin 130 illik yubileyinə həsr olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş "Oxunması zəruri olan kitabların siyahısı"na Hüseyn Cavidin "Azər" poemasının daxil edilməsi isə ədibin zəngin irsinin gənc nəslə çatdırılması sahəsində atılan mühüm addımdır.

Xalqımızın böyük oğlu Heydər Əliyevin XX əsr Azərbaycan romantizminin görkəmli siması, romantik şair və filosof Hüseyn Cavid haqqındakı fikirləri müasir cavidşünaslığın metodoloji əsaslarını müəyyən edir: ***"Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir. Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır. Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çatdırıbdır. O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur".***

Hüseyn Cavid həyatda olanı yox, olmalı olanı tərənnüm edən romantik şairdir. Romantik pafos, xəyalın hüdudsuz uçuşu, mütləq həqiqətə çatmağa dönməz cəhd onun ədəbi-bədii məramını səciyyələndirən başlıca cəhətlərdir. Yaradıcılığının bu məziyyətinə görə Hüseyn Cavidi ədəbi şəxsiyyət kimi Azərbaycan ürfan ədəbiyyatının sonuncu ustadı adlandırırlar. Hüseyn Cavid Məhəmməd Füzulidən üzübəri orta əsrlər Azərbaycan ədəbiyyatının poetik qanunauyğunluqlarını öz yaradıcılığında əks etdirən, xüsusilə əruz ehkamlarına yenidən can verən qüdrətli söz ustadıdır.

Azərbaycan ədəbiyyatı tarixində Hüseyn Cavid yaradıcılığı məzmunca yüksək olduğu kimi, bədii forma cəhətdən də zəngin və əlvandır. Novator lirik şeirlər, liro-epik, epik poemalar yazmaqla yanaşı, Cavid Azərbaycan söz sənətinə faciə və dramlardan ibarət incilər bəxş etmişdir. Ədəbiyyatımızın söz zadəganı Hüseyn Cavid dramaturgiyası, sözün həqiqi mənasında, xarakterlər dramaturgiyasıdır. Bu baxımdan onun dram sənətkarlığını ancaq dünyanın ən böyük dramaturqları ilə müqayisə etmək olar. Həqiqətən, Hüseyn Cavid elə bir "sübh şəfəqi" idi ki, işığı əsrlərin süzgəcindən süzülüb gəlir və həmişə də öz ilkin şövqü ilə parıldayır. Əsrlər bir-birini əvəz edir, o işıq isə ürəyində, amalında azadlıq eşqi olan bəşəriyyəti daim özünə çəkir. Çünki həmin işığın nüvəsində həqiqət dayanır.

Hüseyn Cavid yaradıcılığında adi, məişət səviyyəsinə enən, dövrün ötəri tələbindən doğan fikir və mülahizə yoxdur. Ədib bütün fikirləri ümummillidir, ümumbəşəridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Hüseyn Cavid nə yazmışsa, Azərbaycan üçün, Azərbaycan oxucusu üçün, Azərbaycan xalqı üçün yazmışdır. Millilik, vətənçilik, Azərbaycançılıq onun yaradıcılığının ruhunda və qanındadır. Cavidin şeir dili təmiz Azərbaycan-türk dilidir. Hüseyn Cavid əsərlərinin mövzusunun və qəhrəmanının hansı dövrü və ya hansı mühiti təmsil etməsindən asılı olmayaraq, bu əsərlərdə irəli sürülən ideyalar, birinci növbədə, azərbaycanlı oxucunun özünü dərk etməsinə, vətən tarixini, onun milli dəyərlərini öyrənməsinə, mədəni irsə sahib çıxmasına yönəlmişdir".***

Hüseyn Cavid sənətdə heç kimə bənzəməyən, orijinal bir yaradıcılıq yolu keçən və özündən sonra bəşəriyyət üçün ölməz əsərlər miras qoyan sənətkardır. "Şeyx Sənan", "İblis", "Topal Teymur", "Peyğəmbər", "Xəyyam", "Səyavuş" kimi pyesləri, "Azər" poeması bütöv bir silsilə təşkil edən lirik-fəlsəfi şeirləri ilə Hüseyn Cavid öz adını Azərbaycan ədəbiyyatının qızıl səhifələrinə əbədi həkk etmişdir. Öz dahiyanə əsərləri ilə Hüseyn Cavid Azərbaycan dramaturgiyasını həm mövzu, həm də xarakter və obrazlar qalereyası baxımından olduqca zənginləşdirmiş, dramaturgiyamıza ümumbəşəri ideyaları təbliğ edən əsərlər bəxş etmişdir.

***Naxçıvan Muxtar Respublikası***
***Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Maliyyə idarəetməsinin təkmilləşdirilməsi istiqamətində Avstriya Respublikasının Federal Maliyyə Nazirliyinin dəvəti ilə Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinin nümayəndə heyəti 15-18 oktyabr tarixlərində Avstriyanın paytaxtı Vyanada və Ştiriya Əyalətinin Qrats şəhərində işgüzar səfərdə olub, bir sıra görüşlər keçirib.*

# Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin nümayəndə heyəti Avstriya Respublikasında işgüzar səfərdə olub



Səfərdə Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Səbuhi Məmmədov, Dövlət Maliyyə Nəzarəti İdarəsinin rəisi Rəsul Rəsulov, Büdcə şöbəsinin müdiri Aləm Bağırov, Maliyyə Tədris Mərkəzinin direktoru Sevinc Cabbarova və nazirliyin aparıcı məsləhətçisi Qənbər Xudiyev iştirak ediblər.

Oktyabrın 15 və 16-da Vyana şəhərində Avstriya Federal Maliyyə Nazirliyində geniştərkibli görüş keçirilib. Görüşdə Avstriya Respublikasının Federal maliyyə nazirinin müavini – Büdcə və Maliyyə Planlaşdırması Baş İdarəsinin rəisi Frederike Şvarzenderferin rəhbərlik etdiyi heyətlə Avstriya Respublikasının Mərkəzi büdcəsi ilə əyalət büdcələri arasında münasibətlərin qurulması mexanizmi ətrafında müzakirələr aparılmışdır. İclasın gedişində muxtar respublikanın da müvafiq sahə üzrə iş prinsipləri barədə danışılıb və təcrübə mübadiləsinin gələcək iş prosesinə müsbət təsirlərindən bəhs edilib.

Nümayəndə heyəti Avstriya Respublikasının Ştiriya Əyalətinin paytaxtı Qrats şəhərində olmuş, burada maliyyə naziri Səbuhi Məmmədov ilə əyalətin maliyyə, nəqliyyat və energetika üzrə naziri Anton Lanqın ikitərəfli görüşü keçirilmişdir. Qarşılıqlı maraqdoğuran sahələrdə fikir mübadiləsi aparılmış görüşdə əsas müzakirə mövzuları Ştiriya Əyalətində yerli büdcənin tərtibi, gəlir və xərclərin müəyyənləşdirilməsi metodologiyası və mərkəzi büdcə ilə iş prinsipləri olmuşdur. Oxşar metodologiyanın mövcudluğu ilə yanaşı, fərqlilik təşkil edən sahələr barədə də danışılmış və hər birinin özünəxas üstünlükləri qarşılıqlı tədqiq istiqamətinə çevrilmişdir.

Ştiriya Əyalətinin Maliyyə İdarəsinin rəisi Klemens Munqenast və müvafiq sahələr üzrə ekspertlərin iştirakı ilə də görüş keçirilmişdir. Heyətlər tərəfindən müxtəlif istiqamətlər üzrə müzakirələr aparılmış, iş prinsipləri təhlil olunmuşdur. Təcrübələrin öyrənilməsi ilə mövcud iş mexanizminin təkmilləşdirilməsinə yönəldilən danışıqlar, bələdiyyələrə və kommunal təşkilatlara ayrılan vəsait və dotasiyaların müəyyənləşdirilməsi mexanizmi, büdcədən maliyyələşən və dotasiya alan təşkilatlarda nəzarət tədbirlərinin aparılması kimi spesifik sahələri əhatə etmişdir.

Beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində kifayət qədər əhəmiyyətli rola malik olan görüşlərin keçirilməsi daha təkmil maliyyə sisteminin qurulmasına, büdcə vəsaitlərinin daha səmərəli istifadəsinə, gəlir və xərclərin planlaşdırılması prosesinin daha da təkmil şəkildə aparılmasına zəmin yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası***
***Maliyyə Nazirliyinin***
***mətbuat xidməti***

# SIAL Paris beynəlxalq qida sərgisində muxtar respublikamız da təmsil edilib




*Oktyabrın 21-də Fransanın paytaxtı Paris şəhərində SIAL Paris beynəlxalq ərzaq sərgisi açılıb. 1964-cü ildən dünyanın müxtəlif ölkələrində keçirilən SIAL sərgisində bu il 109 ölkədən 7 mindən çox şirkət iştirak edir. Bu şirkətlər ərzaq sahəsində 23 sektoru əhatə edir.*

Kənd Təsərrüfatı və İqtisadiyyat nazirliklərinin, ölkəmizin Fransadakı səfirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə qida, meyvə-tərəvəz, şərab və digər spirtli içkilər, meyvə şirələri, mineral sular, konservləşdirilmiş məhsullar, fındıq və qurudulmuş meyvə, çay istehsalı ilə məşğul olan 23 Azərbaycan şirkəti sərgidə öz məhsullarını "Made in Azerbaijan" vahid ölkə stendi ilə təqdim edir.

Sərgidə Azərbaycan pavilyonunda Naxçıvan Muxtar Respublikasına ayrıca guşə ayrılıb.

Kənd təsərrüfatı və yeyinti məhsullarının nümayişi, satışı, müəssisələrin imicinin formalaşdırılması, brendlərinin reklamı və eyni zamanda iştirak edən müəssisələrin kooperasiya əlaqələrinin genişləndirilməsi, yeni tərəfdaşların tapılması məqsədilə təşkil olunmuş SIAL Paris beynəlxalq qida sərgisində muxtar respublikada fəaliyyət göstərən "Naxçıvan Məhsulları", "F.H Oğulları" və "Sumqala Tikinti Təchizat" Məhdud Məsuliyyətli cəmiyyətlərinin nümayəndələri iştirak edir.

Sərgi çərçivəsində Azərbaycan, o cümlədən Naxçıvan şirkətlərinin nümayəndələri Avropa İttifaqının alıcı şirkətləri ilə görüşlər keçirəcək və ixrac məsələlərinə dair müzakirələr aparacaq.

Qeyd edək ki, SIAL Paris beynəlxalq qida sərgisi oktyabrın 25-dək davam edəcək.

***Naxçıvan Muxtar Respublikası***
***İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 24 oktyabr 2018-ci il tarixdən 23 noyabr 2018-ci il tarixədək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında *(www.dqmk.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər test imtahanında iştirak üçün 70 manat məbləği "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ komissiyanın "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək komissiyaya təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər komissiyaya gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar komissiyanın (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dqmk@nakhchivan.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Təhsil müəssisəsi | İxtisas | Vakant yerlərin sayı | Vakant saatların miqdarı | Qeyd |
|---|---|---|---|---|---|
| **Naxçıvan şəhəri üzrə:** | | | | | |
| 6900113 | Heydər Əliyev adına tam orta məktəb | Coğrafiya | 2 | 24 | |
| 6900114 | Heydər Əliyev adına tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6910314 | 3 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6910325 | 3 №-li tam orta məktəb | Fransız dili | 1 | 12 | |
| 6910318 | 3 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 3 | 36 | |
| 6910321 | 3 №-li tam orta məktəb | Rus dili və ədəbiyyatı | 1 | 12 | |
| 6910312 | 3 №-li tam orta məktəb | Tarix | 1 | 12 | |
| 6910514 | 5 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6910518 | 5 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6910521 | 5 №-li tam orta məktəb | Rus dili | 1 | 12 | |
| 6910621 | 6 №-li tam orta məktəb | Rus dili | 1 | 12 | |
| 6910814 | 8 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6910921 | 9 №-li tam orta məktəb | Rus dili | 1 | 12 | |
| 6911014 | 10 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6911214 | 12 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6911414 | 14 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6911614 | 16 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6911714 | 17 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6911721 | 17 №-li tam orta məktəb | Rus dili | 1 | 12 | |
| **Cəmi:** | | **22 yer** | | | |
| **Şərur rayonu üzrə:** | | | | | |
| 6900407 | Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6900414 | Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey | Fiziki tərbiyə | 1 | 12 | |
| 6900425 | Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey | Fransız dili | 1 | 12 | |
| 6900421 | Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey | Rus dili | 1 | 12 | |
| 6920809 | Axaməd kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6920920 | Axura kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6920313 | Alışar kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6920309 | Alışar kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6920318 | Alışar kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6920320 | Alışar kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6920312 | Alışar kənd tam orta məktəbi | Tarix | 1 | 12 | |
| 6920520 | Arbatan kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6920508 | Arbatan kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 15 | |
| 6920713 | Aşağı Yaycı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6920725 | Aşağı Yaycı kənd tam orta məktəbi | Fransız dili | 1 | 12 | |
| 6920712 | Aşağı Yaycı kənd tam orta məktəbi | Tarix | 1 | 12 | |
| 6921609 | Dərəkənd kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6921620 | Dərəkənd kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6921610 | Dərəkənd kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6921811 | Diyadin kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6921813 | Diyadin kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6921818 | Diyadin kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6921810 | Diyadin kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6922213 | Ərəbyengicə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6922325 | Gümüşlü kənd tam orta məktəbi | Fransız dili | 1 | 12 | |
| 6922310 | Gümüşlü kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6922308 | Gümüşlü kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6922407 | Havuş kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6922413 | Havuş kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | * |
| 6922419 | Havuş kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6922408 | Havuş kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6922412 | Havuş kənd tam orta məktəbi | Tarix | 1 | 12 | |
| 6922510 | Həmzəli kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6922508 | Həmzəli kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6922521 | Həmzəli kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6924909 | Xanlıqlar kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6924919 | Xanlıqlar kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6925013 | Xələc kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6925025 | Xələc kənd tam orta məktəbi | Fransız dili | 1 | 12 | |
| 6922925 | Kürçülü kənd tam orta məktəbi | Fransız dili | 1 | 12 | |
| 6923013 | Kürkənd kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6923713 | Qaraburc kənd ümumi orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6923709 | Qaraburc kənd ümumi orta məktəbi | Fizika | 1 | 12 | |
| 6923719 | Qaraburc kənd ümumi orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6923708 | Qaraburc kənd ümumi orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6923917 | Qarxun kənd tam orta məktəbi | Təsviri incəsənət | 1 | 12 | |
| 6924013 | Qorçulu kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924010 | Qorçulu kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6923309 | Muğancıq-Mehrab kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6923413 | Muğanlı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6923412 | Muğanlı kənd tam orta məktəbi | Tarix | 1 | 12 | |
| 6923622 | Püsyan kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6924113 | Sərxanlı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924108 | Sərxanlı kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6924313 | Şahbulaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | * |
| 6924413 | Şəhriyar kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924507 | Tənənəm kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | * |
| 6924518 | Tənənəm kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 16 | |
| 6924510 | Tənənəm kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6924611 | Təzəkənd kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6924613 | Təzəkənd kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | * |
| 6924618 | Təzəkənd kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6924713 | Tumaslı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924720 | Tumaslı kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6925309 | Yeni Havuş kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6925510 | Yuxarı Yaycı kənd tam orta məktəbi | Kimya | 1 | 12 | * |
| **Cəmi:** | | **66 yer** | | | |
| **Babək rayonu üzrə:** | | | | | |
| 6930312 | Araz kənd ümumi orta məktəbi | Tarix | 1 | 12 | |
| 6930314 | Araz kənd ümumi orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6930420 | Aşağı Buzqov kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | * |
| 6930907 | Gərməçataq kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6930911 | Gərməçataq kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | * |
| 6930921 | Gərməçataq kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6930914 | Gərməçataq kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6931020 | Göynük kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | * |
| 6931010 | Göynük kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6931220 | Güznüt kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6931221 | Güznüt kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6933213 | Xal-xal kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | * |
| 6931413 | Kərimbəyli kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6931513 | Kültəpə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6931521 | Kültəpə kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6932521 | Qahab kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6932516 | Qahab kənd tam orta məktəbi | Musiqi və nəğmə | 1 | 12 | |
| 6932613 | Qaraqala kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6931621 | Məmmədrza Dizə kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6931610 | Məmmədrza Dizə kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6931720 | Məzrə kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6932220 | Nehrəm kənd 2 №-li tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6931907 | Nəcəfəlidizə kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6931914 | Nəcəfəlidizə kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6931918 | Nəcəfəlidizə kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 3 | 42 | |
| 6931921 | Nəcəfəlidizə kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6931912 | Nəcəfəlidizə kənd tam orta məktəbi | Tarix | 1 | 12 | |
| 6932021 | Nəhəcir kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | * |
| 6932421 | Payız kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | * |
| 6932714 | Sirab kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6933021 | Uzunoba kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6933421 | Yarımca kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6933513 | Yuxarı Buzqov kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | * |
| 6933510 | Yuxarı Buzqov kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| **Cəmi:** | | **36 yer** | | | |

| Ordubad rayonu üzrə: | | | | | |
|---|---|---|---|---|---|
| 6940108 | Ordubad şəhər 1 №-li tam orta məktəb | Riyaziyyat | 1 | 12 | |
| 6940112 | Ordubad şəhər 1 №-li tam orta məktəb | Tarix | 1 | 18 | |
| 6940409 | Aşağı Əylis kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6940513 | Aza kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | * |
| 6940519 | Aza kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6941020 | Bist kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | * |
| 6941520 | Dizə kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | |
| 6941510 | Dizə kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6941512 | Dizə kənd tam orta məktəbi | Tarix | 1 | 12 | |
| 6941610 | Düylün kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6941621 | Düylün kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6941612 | Düylün kənd tam orta məktəbi | Tarix | 1 | 18 | |
| 6941620 | Düylün kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6941711 | Ələhi kənd ümumi orta məktəbi | Biologiya | 1 | 12 | * |
| 6941710 | Ələhi kənd ümumi orta məktəbi | Kimya | 1 | 12 | |
| 6941913 | Gənzə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6941910 | Gənzə kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6942020 | Gilançay kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | * |
| 6942010 | Gilançay kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6943413 | Xanağa kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6943511 | Xurs kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | * |
| 6943510 | Xurs kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6942111 | Kələki kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | * |
| 6942113 | Kələki kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6942114 | Kələki kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 14 | |
| 6942110 | Kələki kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6942207 | Kotam kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6942409 | Nürgüt kənd tam orta məktəbi | Fizika | 1 | 12 | * |
| 6942420 | Nürgüt kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | |
| 6942720 | Pəzməri kənd ümumi orta məktəbi | İngilis dili | 1 | 12 | * |
| 6942708 | Pəzməri kənd ümumi orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6942820 | Sabirkənd kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | * |
| 6943010 | Unus kənd tam orta məktəbi | Kimya | 1 | 12 | * |
| 6943320 | Vənənd kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6943610 | Yuxarı Əylis kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| Cəmi: | | 35 yer | | | |
| Culfa rayonu üzrə: | | | | | |
| 6950511 | Boyəhməd kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | * |
| 6950513 | Boyəhməd kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6950510 | Boyəhməd kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6950613 | Camaldın kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6950620 | Camaldın kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6950713 | Dizə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6951221 | Gal kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | * |
| 6952314 | Xanəgah kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | * |
| 6952113 | Şurud kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | * |
| 6952120 | Şurud kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6952211 | Teyvaz kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | * |
| 6952221 | Teyvaz kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6952212 | Teyvaz kənd tam orta məktəbi | Tarix | 1 | 18 | |
| 6952511 | Yaycı kənd 1 №-li tam orta məktəb | Biologiya | 1 | 12 | |
| Cəmi: | | 15 yer | | | |
| Kəngərli rayonu üzrə: | | | | | |
| 6970210 | Böyükdüz kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6970221 | Böyükdüz kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6970911 | Xıncab kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | * |
| 6970920 | Xıncab kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | |
| 6970921 | Xıncab kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6971018 | Xok kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6970411 | Qabıllı kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6970413 | Qabıllı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6970418 | Qabıllı kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 18 | |
| 6970410 | Qabıllı kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6970718 | Şahtaxtı kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 2 | 28 | |
| 6971113 | Yeni Kərki kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6971121 | Yeni Kərki kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6971112 | Yeni Kərki kənd tam orta məktəbi | Tarix | 1 | 12 | |
| 6971211 | Yurdçu kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| Cəmi: | | 16 yer | | | |
| Şahbuz rayonu üzrə: | | | | | |
| 6960113 | Şahbuz şəhər 1 №-li tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6960119 | Şahbuz şəhər 1 №-li tam orta məktəb | İnformatika | 1 | 12 | |
| 6960213 | Şahbuz şəhər 2 №-li tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6960214 | Şahbuz şəhər 2 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6960407 | Ağbulaq kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6960411 | Ağbulaq kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6960410 | Ağbulaq kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6960507 | Ayrınc kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6960519 | Ayrınc kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6960709 | Badamlı qəsəbə tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6960610 | Badamlı kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6960914 | Daylaqlı kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6961011 | Gömür kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961107 | Güney Qışlaq kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6961111 | Güney Qışlaq kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961113 | Güney Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961118 | Güney Qışlaq kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 18 | |
| 6961311 | Kolanı kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961314 | Kolanı kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6961319 | Kolanı kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6961411 | Kükü kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961811 | Qızıl Qışlaq kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961813 | Qızıl Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961611 | Mahmudoba kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961613 | Mahmudoba kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961711 | Nursu kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961718 | Nursu kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 2 | 30 | |
| 6962007 | Şada kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6962011 | Şada kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6962013 | Şada kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962009 | Şada kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6962018 | Şada kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 2 | 30 | |
| 6962020 | Şada kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6962010 | Şada kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6962213 | Türkeş kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962220 | Türkeş kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6962313 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962314 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6962318 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 18 | |
| Cəmi: | | 41 yer | | | |
| Sədərək rayonu üzrə: | | | | | |
| 6980108 | Heydərabad qəsəbə tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6980320 | Sədərək kənd 1 №-li tam orta məktəb | İngilis dili | 1 | 18 | |
| 6980312 | Sədərək kənd 1 №-li tam orta məktəb | Tarix | 1 | 12 | |
| 6980420 | Sədərək kənd 2 №-li tam orta məktəb | İngilis dili | 1 | 18 | |
| Cəmi: | | 4 yer | | | |
| YEKUN: | | 235 yer | | | |

**Qeydlər:**

1. Ulduz işarəsi ilə göstərilmiş müəssisələr Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 dekabr tarixli 150 nömrəli qərarına əsasən stimullaşdırıcı tədbirlər müəyyən edilən təhsil müəssisələridir.
2. Naxçıvan şəhər 3 №-li tam orta məktəbdə işə qəbul olunmaq üçün yalnız rus dilini mükəmməl bilən şəxslər müraciət edə bilərlər.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 778